**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ NƏZƏRİ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASI

İxtisas: 6104.01 – "Pedaqoji psixologiya"

Elm sahəsi: Psixologiya

İddiaçı: **Pərvanə İlyas qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2024**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Psixologiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Psixologiya elmləri doktoru, professor
**Ramiz İbrahim oğlu Əliyev**

Rəsmi opponentlər: Psixologiya elmləri doktoru, dosent
**İmdad Mustafa oğlu Bayramov**

Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Ceyhun Qurbanalı oğlu Alıyev**

Psixologiya üzrə fəlsəfə doktoru
**Lalə Adil qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Psixologiya elmləri doktoru, professor
**Kamilə Ramiz qızı Əliyeva**

Dissertasiya şurasının elmi katibi: Psixologiya üzrə fəlsəfə doktoru, dosent
**Müşviq Hüseyn oğlu Mustafayev**

Elmi seminarın sədri: Psixologiya elmləri doktoru, professor
**Rəşid Vəkil oğlu Cabbarov**

## TƏDQİQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrün ziddiyyətləri, cəmiyyətimizin inkişafı və bu inkişafın doğurduğu gündən-günə artan problemlər, gündəlik fəaliyyətimiz zamanı qarşıya çıxan müxtəlif tipli məsələlər hər bir insandan: istər valideynlərdən, istər müəllimlərdən, istərsə də psixoloqlardan cəmiyyətdə və təbiətdə baş verən dəyişikliklərə müstəqil şəkildə reaksiya verə biləcək, müxtəlif mənşəli proseslərdə qarşılıqlı asılılığa bütöv baxış təzahür etdirəcək, eyni zamanda nəzəri və praktik problemlərə qeyri-standart və çevik yanaşmağı bacaracaq bir şəxsiyyət yetişdirməyi tələb edir. Qarşıya çıxan problemlərə qeyri-standart baxış, bu məsələlərin effektiv həlli yollarını axtarıb tapmaq, adi obyektlərdə belə paradoksal xüsusiyyətləri görə bilmək bacarığı bizim qarşımıza artıq adət etdiyimiz şablon təfəkkürün hüdudlarından kənara çıxmağı və "çevik təfəkkür" çərçivəsində problemlərə yanaşma qabiliyyətini inkişaf etdirməyi vəzifə kimi qoyur.

Bundan başqa isə nəzəri təfəkkürün öyrənilməsinə maraq ondan yaranır ki, müasir dövrdə məktəblilərdə nəzəri təfəkkür probleminə dair praktiki yanaşmalar kifayət qədər deyildir. Bunun pedaqoji fəaliyyət üçün praktiki əhəmiyyəti kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşmasının psixoloji qanunauyğunluqları və mexanizmlərinin tədqiq edilməsinin vacibliyini ortaya çıxarmışdır. Bu gün nəzəri təfəkkürün mahiyyətinin öyrənilməsi problemi kifayət qədər aktualdır, çünki onun həlli kiçikyaşlı məktəblilərin intellektual imkanlarının aktivləşdirilməsinə istiqamətlənmiş effektiv təhsil sisteminin qurulmasının əsasını təşkil edir. Bu problemə artan maraqları nəzərə alaraq psixoloqlar onun kifayət qədər işlənməmiş psixoloji qanunauyğunluqlarını da müəyyənləşdirmək və aydınlaşdırmağa cəhd edirlər.

Problemin mürəkkəbliyi ondan ibarətdir ki, kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün təzahürü psixoloji ədəbiyyatlarda kifayət qədər geniş şərh olunmamış, onun mahiyyəti və psixoloji mexanizmləri, eyni zamanda inkişaf etdirilməsi üsulları isə hələ də lazımi səviyyədə işlənməmişdir. Kiçik məktəblilərdə nəzəri təfəkkür probleminin işlənmə səviyyəsinin kifayət qədər olmaması və onun pedaqoji praktika üçün praktiki əhəmiyyətini nəzərə alaraq yazdığımız bu iş məhz yuxarıda sa-

dalanan məsələlərin araşdırılmasına, təhlil edilməsinə və nəzəri təfəkkürün psixoloji mexanizmlərinin işlənməsinə yönəlmişdir.

Ümumiyyətlə, istənilən mövzuda tədqiqat aparmamışdan öncə müxtəlif ədəbiyyatlarda onun işlənmə səviyyəsinə mütləq nəzər salınmalıdır. Bu, istənilən insana apardığı tədqiqat işində düzgün istiqamət götürməyə, eyni zamanda nəzəri məsələlərin təhlilində etibarlı mənbələrə istinad etməyə imkan yaradacaqdır. Müxtəlif psixoloji ədəbiyyatlara nəzər saldıqda görürük ki, bir çox xarici, rus və yerli psixoloqların əsərlərində bu mövzu ilə bağlı praktik əhəmiyyətli məlumatlara rast gəlinir.

Problemin elmi, nəzəri, praktik, ictimai-tarixi aspektdə öyrənilməsi göstərdi ki, pedaqoji ünsiyyət, pedaqoji təfəkkür, müəllim-şagird münasibətləri istər xarici ölkə, istərsə də Azərbaycan alimləri tərəfindən kifayət qədər araşdırılmışdır. Ancaq cəmiyyətin həyatının, təhsil sisteminin müasir tələbləri, təhsilin dinamikliyi, həmçinin milli xüsusiyyətlərin nəzərə alınması baxımından problemin öyrənilməsi aktuallıq kəsb edir. Təbii ki, aparılmış tədqiqatlara istinad olunmaqla.

Problem ümumnəzəri aspektdə L.S.Vıqotski, A.R.Luriya, A.N.Leontyev, J.Piaje, P.P.Blonskaya, A.V.Bruşlinski, S.L.Rubinşteyn, C.Gilford, E.Torrens, M.Vertheymer, K.Dunker və digərləri tərəfindən araşdırılmışdır.

Müasir dövrdə informasiya axınının əhəmiyyətli dərəcədə artması tədris proqramlarının məzmununun elmi biliklərə yiyələnmə tempinə uyğun operativ yenilənməsini çətinləşdirir. Təhsil sistemində islahatlar apararkən əsas diqqət ibtidai təhsilə yönəlir. Çünki ibtidai siniflərdə şagirdin intellektual potensialı yığılır, idrak maraqları və təlim fəallığı inkişaf edir (V.A.Krutetski, L.V.Zankov, D.B.Elkonin və b.).

Kiçik məktəbli yaşı şəxsiyyətin inkişafı üçün dərin potensial imkanlara malikdir. L.İ.Bojoviç, A.A.Lyublinskaya, L.M.Fridman və b. uşağa məktəbin ilkin tələblərini tez mənimsəməyə və bilik qazanma prosesinə fəal daxil olmağa şərait yaradan müsbət sosial-psixoloji iqlimin əhəmiyyətini xüsusi vurğulayırdılar. N.F.Talızina, N.A.Mençinskaya, M.İ.Maxmutov və b. göstərirdilər ki, müvəffəqiyyətsizliyi yaradan əsas səbəblərdən biri şagirdin öyrənməyi bacarmamasıdır. Uşaqlara müstəqil öyrənməyi, hadisəni tədqiq etməyi öyrətmək, yəni

onları təhsilin subyektinə çevirmək üçün aşağı siniflərdə onlarda müstəqil və nəzəri dərketmə qabiliyyətini təkmilləşdirmək lazımdır.

Orta məktəblərin ibtidai siniflərində düzgün təşkil olunmuş təlim fəaliyyəti, nəzəri məfhumlar və biliklər sisteminin mənimsənilməsi, eləcə də bir sıra digər vacib şərtlər nəzəri təfəkkürün inkişafını mümkün edir. Təfəkkürün bu növü insandan yalnız məzmuna bələdləşmə deyil, həm də "ideal məhsullar"ın düzülüşünün formasına bələdləşməni tələb edir (V.V.Davıdov, D.B.Boqoyavlenskaya, S.E.Kovalyov, L.K.Maksimov, M.A.Xolodnaya, A.Z.Zak və b.). V.V.Beliç, R.A.Ataxanov, X.J.Taneyev, L.S.Yakupova və digərlərinin işləri empirik və nəzəri təfəkkürün qanunauyğunluqlarının öyrənilməsinə həsr olunmuşdur. A.B.Vorontsov, V.A.Qurujapov, O.S.Ostroverx, D.B.Elkonin və b. ibtidai siniflərdə hər bir uşağın fərdi təhsil trayektoriyasının psixoloji-pedaqoji diaqnostikasının və qurulmasının, kiçik məktəblinin ümumi inkişaf səviyyəsinin (həmçinin nəzəri təfəkkürünün) sistematik və hərtərəfli izlənilməsinin əhəmiyyətini göstərmişdirlər.

Azərbaycan pedaqoqları və psixoloqları da bu istiqamətdə önəmli tədqiqatlar aparmışlar. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, B.H.Əliyev, M.Ə.Həmzəyev, K.R.Əliyeva, R.İ.Əliyev, A.N.Abbasov, İ.İ.Əliyev, H.Ə.Əlizadə, R.H.Qədirova, R.Ə.Cavadov, O.F.Kərimov, S.N.Əliyeva, M.H.Mustafayev, R.V.Cabbarov problemi şəxsiyyət, inkişaf və yaş, pedaqoji, sosial psixologiya yönümündən öyrənmişdirlər. Ə.S.Bayramov kiçik məktəblilərdə təfəkkürün inkişaf xüsusiyyətlərini araşdırmış, müstəqillik və tənqidilik keyfiyyətinin əhəmiyyətini xüsusi vurğulamışdır. Ə.Ə.Əlizadə müasir məktəbin psixoloji problemləri içərisində "təfəkkür məktəbi"nə keçidin əhəmiyyətini, yeni pedaqoji təfəkkürün mahiyyətini təyin etmişdir. Ə.Ə.Qədirov kiçik məktəb yaşı dövründə mücərrəd təfəkkürün inkişafı, bu yaş dövründə mücərrədləşdirmənin xüsusiyyətləri problemini araşdırmışdır.

Aparılan tədqiqatlarda idrak fəaliyyəti, nəzəri təfəkkür, pedaqoji proses və s. ciddi şəkildə araşdırılmışdır. Lakin göstərilən problemin çoxcəhətli və mürəkkəb olmasını nəzərə alsaq, onun bütün tərəflərinin əhatə olunduğunu söyləmək çətindir. Məhz bu yanaşma mövzunun xüsusi aktuallıq kəsb etdiyini əyani şəkildə göstərir.

**Tədqiqatın obyekti:** Nəzəri təfəkkürün inkişafı prosesi və psixoloji qanunauyğunluqları təşkil edir.

**Tədqiqatın predmeti:** Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün inkişafının pedaqoji və psixoloji şəraiti təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Təlim prosesində kiçik məktəblilərdə nəzəri təfəkkürün inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsi, təlim prosesində kiçik məktəblilərdə nəzəri təfəkkürün inkişaf xüsusiyyətlərinin yeni konteksdə nəzərdən keçirilməsi, onun ayrı-ayrı çalarlarının tədqiqi tədqiqatın əsas məqsədini təşkil edir.

Qarşıya qoyulan məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələri həll etmək vacibdir:

1. Təfəkkürün idrak prosesi kimi ümumi xarakteristikasını vermək.
2. Nəzəri təfəkkürün qneseoloji və psixoloji mahiyyətini açmaq, bütövlükdə insanın idrak fəaliyyətində nəzəri təfəkkürün yeri və əhəmiyyətini təyin etmək, tədqiqatın əsaslandığı başlıca müddəaları konkretləşdirmək.
3. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün təzahürü, formalaşmasının psixoloji xüsusiyyətlərini və inkişaf dinamikasını araşdırmaq.
4. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşmasına yönəlmiş pedaqoji şəraiti aşkara çıxarmaq və təsvir etmək.
5. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşmasının göstəricilərini və meyarlarını təyin etmək.
6. Müxtəlif məzmunlu təlim materiallarının kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün xarakter və inkişafına təsirini açmaq.
7. Müxtəlif fənlərin tədrisi prosesində nəzəri təfəkkürün imkanlarını tədqiq etmək.
8. Tədris fənlərinin yeni qaydada qurulmasının imkanlarını tədqiq etmək.
9. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün inkişaf səviyyəsini aşkar etmək məqsədilə diaqnostik tədqiqatlar aparmaq.
10. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşmasının pedaqoji şəraitinin effektivliyini təcrübədə yoxlamaq.

**Tədqiqatın metodologiyası və metodları.** Tədqiqatın metodoloji əsaslarında P.Y. Qalperinin, V.V.Davıdovun, A.K. Markovanın, A.G.Asmolovun, o cümlədən A.Z.Zakın əsərlərinə istinad edilmişdir.

Həmçinin nəzəri təfəkkürün formalaşması probleminin həllinə kömək edən "Şüurla fəaliyyətin vəhdəti" (S.L.Rubinşteyn 1957-ci il, A.N.Leontyev 1972, 1983-cü illər), "Məsələ həllinə nəzəri və empirik yanaşma" (S.L.Rubinşteyn 1958-ci il, V.V.Davıdov 1972-ci il, V.V.Rubsov 1987-ci il), "Əqli fəaliyyətin mərhələlər üzrə formalaşması" (P.Y.Qalperin 1965-ci il), "Uşaqların əqli fəaliyyətinin təlimin məzmunu ilə şərtlənməsi" (V.V.Davıdov 1986-cı il, D.B.Elkonin 1989-cu il, V.V.Rubsov 1996-cı il) kimi mövcud elmi müddəalara və eksperimentlərə də istinad edilmiş və müqayisəli təhlil aparılmışdır. Tədqiqatda L.A.Venqerin "Perseptual modelləşdirmə", S.K. İvankovanın "Ardıcıl şəkillər", S.Y. Subotinin "Fiqurları rəngləyin" və V.M. Koqanın "Zehni fəaliyyətin inkişaf dinamikasının müəyyən edilməsi metodikası"ndan, o cümlədən L.İ.Arşavinanın "Zolaq" və "Fiquru tap" metodikalarından, A.Z.Zakın "Anaqram" metodikasından, həmçinin C.K. Ravenin "Mütərəqqi matrislər" metodikasından istifadə olunmuşdur. Qarşıya qoyulmuş vəzifələrin həlli və qeyd edilən hipotezlərin yoxlanılması üçün tədqiqatın predmeti və obyektinə uyğun kompleks metodlardan istifadə edilmişdir. Tədqiqatın metodları onun vəzifələri ilə təyin olunmuşdur: məsələ həlli gedişində təfəkkürün prosessual xarakteristikasını öyrənmək üçün fərdi formada müəyyənləşdirici və formalaşdırıcı eksperimentlərdən istifadə olunmuşdur; nəzəri təfəkkürün yaş dinamikasını öyrənmək üçün müəyyənləşdirici eksperimentdən istifadə olunmuşdur: bu iş tədqiqat işinin lonqityudinal (uzununa) təşkili zamanı fərdi formada, transversal (eninə) təşkili zamanı fərdi və qrup formasında reallaşdırılmışdır; eksperimentlərdə müxtəlifcinsli məsələlərdən ibarət geniş material əsasında yaradılan çox sayda orijinal metodikalardan istifadə olunmuşdur və ümumilikdə III- IV siniflərində oxuyan 76 şagird iştirak etmişdir. Hər qrupdan 38 nəfər şagird seçilmişdir.

**Tədqiqatın fərziyyəsi**. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşması müxtəlif amillərin təsir dərəcəsi ilə şərtlənsə də, əsasən təlim fəaliyyətində ümumiləşdirmə, planlaşdırma, analiz və sintez, müqayisə qabiliyyətinin, o cümlədən intellektual proseslərin inkişaf səviyyəsindən də asılıdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- –Kiçikyaşlı məktəblilərin müstəqil fəaliyyətinin aktivləşdirilməsi onların nəzəri təfəkkürünün inkişafı üçün psixoloji şərtdir. Bu isə öz növbəsində onlarda müstəqil və tənqidi düşünmə qabiliyyətinin, tədqiqat bacarıqlarının inkişafının, tədris materialının öyrənilməsinə yaradıcı yanaşmasının şərtlərindən biridir.
- –Nəzəri təfəkkür təhlil və refleksiyanın köməyi ilə məsələnin şərtindəki mühüm münasibətlərin əks olunmasına yönəlmiş idrak fəaliyyəti olmaqla yanaşı, məsələnin şərtindəki məzmundan və şagirdin bu şərtlərdən nəyə bələdləşməsindən asılı olaraq təzahür edir.
- –Kiçik məktəblilərdə nəzəri təfəkkür idraki ziddiyyətlərin yaradılması fonunda daha optimal inkişaf edir, tapşırıqların şərtləri arasındakı əhəmiyyətli münasibətlər analiz və refleksiya proseslərinin köməyi ilə ifadə olunur.
- –İbtidai sinif şagirdlərinin nəzəri təfəkkürünün inkişafı üçün müəllim və şagirdlərin dialoqunun qurulması mühüm əhəmiyyət kəsb edir.
- –Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün reallaşdırılması üsulları verilmiş tapşırıqların formaları ilə birbaşa bağlıdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində ilk dəfə olaraq orta məktəblərdə təhsilin kiçikyaşlı məktəblilərin nəzəri təfəkkürünün inkişafına təsirinin xarakteri müəyyən edilmişdir. Bununla yanaşı aşağı siniflərdə nəzəri təfəkkürün komponentlərinin inkişafı ilə təhsil dövrləri arasında əlaqə aşkar edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri kiçikyaşlı şagirdlərin nəzəri təfəkkürünün inkişafı şərtləri haqqında psixoloji fikirlərin daha da inkişafına, fundamental psixoloji və pedaqoji problemin həllinə kömək edir. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, ondan əldə edilmiş nəticələr ümumtəhsil məktəblərinin ibtidai siniflərində təhsilin təşkili məsələlərinin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Tədqiqatda istifadə olunan üsullar orta məktəblərdə kiçik yaşlı şagirdlərin zehni inkişafına nəzarət etmək üçün istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları Gəncə Dövlət Universitetinin elmi seminarlarında geniş müzakirə edilmiş, müəllifin həm yerli, həm də beynəlxalq elmi mət-

buatda nəşr olunmuş məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat**. Dissertasiya Gəncə Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş, 6 paraqrafı özündə birləşdirən üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

Giriş 6, I fəsil 32, II fəsil 57, III fəsil 31, nəticə 5, istifadə edilmiş ədəbiyyat siyahısı 13 səhifədən, ümumilikdə dissertasiya işi 243377 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə problemin aktuallığı, onun işlənmə səviyyəsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, fərziyyələri, metodologiyası, elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir və müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilir.

Dissertasiyanın **“Problemin ümumnəzəri məsələləri və ədəbiyyatda qoyuluşu”** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. Birinci fəslin “Təfəkkür anlayışı və onun psixoloji məzmunu” adlı birinci yarımfəslində psixologiyada təfəkkürün psixoloji mahiyyəti müəyyən edilir və onun növləri təhlil edilir. Nəzəri təfəkkür dərk olunan obyekti onun zəruri əlaqələr sistemində tədqiq edərək, ümumi münasibətləri aşkar edir. Onun nəticəsi – konseptual modelin qurulması, nəzəriyyənin yaradılması, təcrübənin ümumiləşdirilməsi, müxtəlif hadisələrin inkişaf qanunauyğunluqlarının açılması və sairədir. Nəzəri təfəkkürün əsasını məzmunlu (dolğun, nəzəri) ümumiləşdirmə təşkil edir. Bu ümumiləşdirmə əşyaların müəyyən sistemini təyin edir və onların arasındakı qarşılıqlı münasibətləri aydınlaşdırmağa imkan verir

Nəzəri təfəkkür dedikdə, dünya haqqında mövcud olan vacib və etibarlı biliklərin əldə edilməsi nəzərdə tutulur. Müstəqil düşüncəyə malik olan insan müəyyən edilmiş suallara cavab verə bilər. Bu cür təfəkkürə malik olan insan mövcud informasiyalar əsasında məntiqi nəticələrə gələ bilir və dünya haqqında mühüm və vacib informasiyalar əldə edə bilir. Ümumi mənada götürdükdə nəzəri təfəkkür in-

sanla birlikdə doğulmur, nəzəri təfəkkürü inkişaf etdirmək və uşaqlara sistemli düşünməyi öyrətmək zəruridir. Bu yarımfəsildə nəzəri təfəkkürün mahiyyəti açıqlanır və müxtəlif nəzəri istiqamətlərdən nümunələr gətirilərək onun əsas struktur komponentləri araşdırılır.

Bizim nəzəri təfəkkür barədə anlayışımız obyektin əlamət və xassələrinin interpretasiyasının dəyişməsi, əqli məsələlərin həlli vəziyyətində obyektin keyfiyyət transformasiyası ilə əlaqədardır. Bizim fikrimizcə, nəzəri təfəkkürün əsasını vasitəçilik mexanizmləri təşkil edir. Əgər L.S.Vıqotskinin tədqiqatlarında universal vasitə qismində sözlər (işarələr) nəzərdən keçirilirdisə, sonrakı dövrlərdə nəinki sözlü, eyni zamanda obrazlı vasitələr də öyrənilməyə başladı. Məktəb yaşı dövründə bu keyfiyyətə sahib olmaq şagirdə obyektlər arasında kifayət qədər mürəkkəb gizli əlaqə və münasibətləri əks etdirən intellektual məsələləri həll etməyə imkan verir.

Birinci fəslin "Nəzəri təfəkkürün tədqiqi istiqamətləri" adlı ikinci yarımfəslində nəzəri təfəkkürün öyrənilməsi istiqamətləri təhlil olunur. Elmi psixoloji ədəbiyyatda olan fikirlər şərh edilir. Qeyd olunur ki, son dövrlərdə bir çox psixoloji (D.B.Boqoyavlenskaya, V.V.Davıdov, A.Z.Zak, P.Y.Qalperin, S.E.Kovalyov, L.K.Maksimov, M.A.Xolodnaya), pedaqoji (R.A.Ataxanov, V.V.Beliç, X.J.Taneyev, L.S.Yakupova, A.B.Vorontsov, V.A.Qurujapov) tədqiqatlar təfəkkürün iki tipinin: empirik və nəzəri təfəkkürün qanunauyğunluqlarının öyrənilməsinə həsr olunmuşdur. Onun formalaşma səviyyəsinin ibtidai təlim prosesində izlənilməsi pedaqoqun işində vacib məqamlardan biridir.

A.Z.Zakın fikrincə, kiçik məktəb yaşlı uşaqlar nəzəri biliklərə yiyələnməyə qabildirlər. Uşaqlar anlayışın mənşəyinə daxil olmaqla, onun arxasında dayanan fikri fəaliyyətin köməyi ilə bu bilikləri mənimsəyir. A.Z.Zak nəzəri təfəkkürün üç vasitəsini ayırmış və təsvir etmişdir. Birinci vasitə - analitik vasitədir, bu zaman nəzəri təfəkkürdə təhlil (analiz) aparıcı rol oynayır, refleksiya isə ümumi münasibətlərin ayırd edilməsi üçün köməkçi rol oynayır. Ikinci vasitə - refleksiv vasitədir, bu zaman nəzəri təfəkkürdə refleksiya müstəqil, istiqamətləndirici rol oynayır, ümumi münasibətlərin xüsusi formalarını ayırd edir, verilən məsələ sinfinə daxil olan altsinif məsələlərin məx-

susi həll prinsiplərini aydınlaşdırır. Üçüncu vasitə - analitik-refleksiv (sintezedici) vasitədir, bu zaman təhlil və refleksiya qarşılıqlı əlaqədə olurlar, bu zaman münasibətlərin ümumi və xüsusi formaları vəhdətdə müəyyən edilir. Bu vasitələr nəzəri təfəkkürün üç genetik forması kimi çıxış edir.

Dissertasiyanın **"Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşmasına təsir göstərən amillər"** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. "Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşması xüsusiyyətləri" adlanan birinci yarımfəslində nəzəri təfəkkürün formalaşması istiqamətləri təhlil olunur. Bu baxımdan bir sıra məsələlərin məzmununa aydınlıq gətirilir.

Birincisi, nəzəri təfəkkür dərk olunan obyektlərə dair məfhumların formalaşmasına, daha doğrusu, onların mühüm, daxili, vacib münasibətlərinin əks olunmasına istiqamətlənmişdir. Empirik təfəkkür dərk olunan obyektlər haqqında hazır məlumatlara istinad edilməsi ilə, onların zahiri xassə və münasibətlərinin hiss üzvləri vasitəsilə əks olunması ilə əlaqədardır.

Ikincisi, nəzəri təfəkkürdən istifadə edərək, insan dərk olunan obyektlərin zəruri əlaqələrini təhlil və tərkibin köməyi ilə tədqiq edərək ümumiləşdirmələr aparır. Bu cür əlaqələrin təhlil və tərkib edilməsi spesifik vasitələrlə fikrən təcrübə aparılmasını və nəticələrin ümumiləşdirilməsini həyata keçirir. Bu halda spesifik vasitələr kimi ideallaşdırılmış obyektlərin xüsusi əşyaviliyi, o cümlədən konseptual modellər çıxış edir.

Üçüncüsü, nəzəri təfəkkürü həyata keçirərək, insan dərk olunan obyektlərin mühüm münasibətlərinin təhlil-tərkib xarakteristikasının üsul və nəticələrini (nəzəri ümumiləşdirmələr) həm idarə edir, həm də qiymətləndirir. Daha doğrusu, refleksiyadan obyektlərin öyrənilməsinin tədqiqat üsulu kimi istifadə edir.

Dördüncüsü, nəzəri təfəkkürə xüsusi məntiqi aspektdə baxılması imkan verdi ki, onu ümumi, xüsusi və təkcənin, tamın birliyi olan anlayışların formalaşmasına istiqamətlənən psixi idrak prosesi kimi nəzərdən keçirək.

Nəzəri təfəkkür daxili əlaqələri əks etdirdiyi üçün vasitəli xarakterə malikdir. Nəzəri təfəkkürə dərk olunan obyektlər haqqında

məfhumların yaradılması işi kimi baxarkən, onun aşağıdakı vəzifələri əhatə etdiyini söyləmək olar: dərk olunan obyektlərdə ümumi, xüsusi və təkcə, tam kateqoriyalarını ifadə edən müəyyənliyi ayırmaq. Burada ümumi münasibətlərin tapılması onun xüsusi formalarının fərqləndirilməsi üçün vacib şərtdir, sonuncu isə ümumi münasibətlər və onun xüsusi formalarının bütövlüyünün kəşfi üçün şərtdir, beləliklə, nəzəri təfəkkürün son məqsədinə – ümumi, xüsusi və təkcənin vahidliyi kimi anlayışın formalaşmasına nail olunur.

Nəzəri təfəkkürün üsulları öz təbiətinə görə, obyektiv olaraq iki növ idrak aktının - bilavasitə məsələnin şərtinin tədqiqi ilə bağlı və onun tədqiqinin xüsusiyyətlərinə baxılması ilə bağlı aktların bütövlüyü kimi çıxış edir. Birinci növ idrak aktları təhlil (analiz) yolu ilə dərk olunan obyektlərdə zəruri xüsusiyyətləri (ümumi, xüsusi və tam) ayırd edir. İkinci növ idrak aktları, daha doğrusu, ağlın öz fəaliyyətini və onun yaranma üsullarını müşahidə etməsini, nəticədə ağılda bu fəaliyyətin ideyalarının baş qaldırmasını səciyyəsinə və fəlsəfi ənənəyə əsasən refleksiya adlandırmaq olar.

Nəzəri təfəkkür üç müxtəlif aspektdə nəzərdən keçirilə bilər. I-si əşyaların mahiyyətinin inikası üçün vacib idrak üsulu kimi, II-si ümumi, xüsusi və təkcənin tamlığı kimi həqiqi məfhum formalaşdıran təfəkkür tipi kimi, III-sü məsələ həlli zamanı onun şərtinə bələdləşməni həyata keçirən insanın mürəkkəb fəaliyyəti kimi.

Nəzəri təfəkkür şagirdlərin ən mühüm keyfiyyətlərindən biri kimi:

a) Müstəqil şəkildə müəyyən sual, problemli şərait yarada bilmək qabiliyyətində;
b) Müstəqil şəkildə məsələnin həlli yollarını tapmaq və bunun əsasında müəyyən nəticəyə gəlməsində;
c) Müxtəlif problemlər və onların yaranmasına təsir göstərən amillər haqqında mühakimələr irəli sürmək qabiliyyətində;
d) Mövcud fikirləri, bildiyi qanunauyğunluqları başqa məsələlərə tətbiq edə bilmək bacarıqlarında təzahür edir.

Nəzəri təfəkkür məsələ həlli zamanı analitik, refleksiv və sintezedici üsullarla həyata keçir. Qeyd olunan üsullar vahid əməliyyat nüvəsinə malikdir: təhlil və refleksiyanın qarşılıqlı əlaqəsi, - onun reallaşması fikri, daxili planda işləmək qabiliyyəti ilə şərtlənir. Təhlil

və refleksiyanın məzmunu və rolu nəzəri təfəkkürün hansı üsulu çərçivəsində, - analitik, refleksiv, yaxud sintezedici, - həyata keçməsinə müvafiq olaraq dəyişir.

İkinci fəslin ikinci yarımfəsli "Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşdırılmasının pedaqoji şəraiti" adlanır. Burada şagirdlərdə nəzəri təfəkkürün formalaşdırılmasının şərtləri və pedaqoji şəraitin bu prosesdə roluna aydınlıq gətirilir. Təlim prosesində şagirdlərin nəzəri təfəkkürünün öyrənilməsi və inkişafı üçün, hər şeydən əvvəl, onlarda təsəvvür və bilik dairəsini genişləndirmək lazımdır. Təsəvvür və bilik dairəsinin genişləndirilməsi, tənqidi surətdə düşünmək üçün əsas zəmin olur. Təsəvvür və bilik dairəsi geniş olan şagirdlər həyata açıq gözlə baxmağı, düzgün olanları düzgün olmayanlardan asanlıqla seçməyi bacarırlar. Təlim prosesində şagirdlərin nəzəri təfəkkürünü inkişaf etdirmək üçün onların fikri fəallığını artırmaq lazımdır. Keçilən mövzuların sadəliyi, kiçikliyi və başa düşülməsi fəallığa müsbət təsir edir və müstəqilliyin inkişaf etdirilməsi üçün əlverişli zəmin yaradır. Lakin müəllimin özünün metodikasından, materialı şagirdlərə necə çatdırmasından da çox şey asılıdır.

Təlim prosesində ibtidai məktəb şagirdlərinin nəzəri təfəkkür qabiliyyətini öyrənmək, inkişaf etdirmək və tərbiyə etmək üçün yol və vasitələr çoxdur. Lakin bu göstərilən vasitələrə hərdən-bir əl atmaqla şagirdləri həqiqi mənada tərbiyə etmək olmaz. Bunun üçün şagirdlərin təfəkkürünü göstərilən sahələrdə mümarisə etdirmək lazımdır. Çünki nəzəri təfəkkür təkcə şüurlu fəaliyyət nəticəsində deyil, vərdişlərin möhkəmləndirilməsi yolu ilə də inkişaf edir. Nəzəri təfəkkür qabiliyyətinə malik olan şagirdlər isə təlim prosesində qarşıya çıxan məsələləri həll edir, cisim və hadisələrin mühüm əlamət və xüsusiyyətlərini ayırmağı bacarır, obyektiv aləmdə mövcud olan əlaqə və münasibətləri asanlıqla dərk edirlər. Beləliklə, şagirdlər təlimdə çox şeyə müvəffəq olurlar.

Şagirdlərdə nəzəri təfəkkürün formalaşması yüksək təhsil nəticələri əldə etmək üçün vacib amildir. Nəzəri təfəkkür imkan verir ki, şagirdlər təlim işlərini sistemləşdirsin, mümkün çətinlikləri vaxtında görüb aradan qaldırsın. Şagirdlərdə nəzəri təfəkkürün təhlil, planlaşdırma, refleksiya kimi komponentlərinin inkişaf etdirilməsinə yönəl-

dilmiş xüsusi tapşırıqların təşkil edilməsi müasir təhsilin qarşısında duran akrual məsələlərdən biridir.

Şagirdlərin qabiliyyətləri çatan səviyyədə yaxşı oxumaqları üçün onlarda idrak marağı və motivasiyası yüksəldilməlidir. Şagirdlərdə özünüqiymətləndirmə və özünəinamın səviyyəsi təlim müvəffəqiyyətinə birbaşa təsir göstərir.

Müəllimin pedaqoji ustalığı şagirdlərdə idrak maraqlarını oyadır, möhkəmləndirir və inkişaf etdirir. Müəllim pedaqoji məharətlə tədris etdiyi fənnin məzmununu zənginləşdirir, dərinləşdirir və maraqlı edir. Beləliklə, şagirdlər dərsə həvəslə gəlir, onların idrak fəaliyyəti yaradıcı, produktiv xarakter daşıyır.

Dissertasiyanın **“Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün eksperimental tədqiqi”** adlanan üçüncü fəsli müəllifin apardığı elmi tədqiqatın təsviri, təhlili və şərhinə həsr edilmişdir. Üçüncü fəslin “Tədqiqat metodlarının təsnifi prinsipləri” adlanan birinci yarımfəslində tədqiqat prosesində istifadə olunan üsullar təsvir olunur. Bu tədqiqatda kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün inkişafını müəyyən etmək üçün dörd metodikadan istifadə edilmişdir: L.İ.Arşavinanın “Zolaq” metodikası, L.İ.Arşavinanın “Fiquru tap” metodikası, A.Z.Zakın “Anaqram” metodikası, C.K.Ravenin “Mütərəqqi matrislər” metodikası.

Üçüncü fəslin ikinci yarımfəsli “Alınmış nəticələrin şərhi” adlanır. Bu yarımfəsildə tədqiqatın nəticələri təhlil olunur. Tədqiqat nəticələrinin emalı bir neçə mərhələdə həyata keçirilmişdir: 1) birinci mərhələdə cəlb olunmuş seçmənin həm bütövlükdə, həm də ayrı-ayrılıqda qruplar üzrə təsviri statistikası aparılmışdır; 2) ikinci mərhələdə müxtəlif metodlardan istifadə etməklə əldə edilmiş nəticələr şərh edilmişdir.

Apardığımız müşahidə metodu vasitəsilə əvvəlcə ibtidai məktəb şagirdlərinin nəzəri təfəkkürünün təzahür formalarını, onun inkişaf dinamikasını öyrənmişik. Tədqiqat iki mərhələdə aparılmışdır. Birinci mərhələdə nəzəri təfəkkür sahəsində III-IV sinif şagirdləri arasında fərdi fərqləri öyrənmişik. Bu məqsədlə Gəncə şəhərindəki 39 və 43 saylı orta məktəblərin III-IV siniflərində 76 şagirdin təfəkkür xüsusiyyətlərini müşahidə etmişik.

Tədqiqatın ikinci mərhələsində isə yalnız III-IV siniflərdə müstəqillik və tənqidilik sahəsində fərdi fərqlərə deyil, ümumiyyətlə, ki-

çik məktəbyaşlı uşaqlarda nəzəri təfəkkürün inkişaf xüsusiyyətlərinə diqqət yetirmişik. Onu da qeyd etmək lazımdır ki, bu mərhələdə nəzəri təfəkkürün inkişaf dinamikasını müəyyənləşdirmək tədqiqatın başlıca qayəsi olmuşdur.

Eksperimentdə dərslərində nisbətən bərabər müvəffəqiyyət qazanan şagirdlər iştirak etmişlər. Hər sinifdən seçilmiş şagird dərsdəki müvəffəqiyyətinə görə 3 qrupa – yaxşı, əla oxuyanlar (6 nəfər), orta oxuyanlar (6 nəfər) və zəif oxuyanlar (6 nəfər) ayrılmışdır. Belə bir bölgüdə məqsəd şagirdlərin təlimdəki müvəffəqiyyətləri ilə onlarda əqlin müstəqillik və tənqidilik keyfiyyətləri arasındakı asılılığı, münasibəti araşdırmaq olmuşdur.

Müəyyənləşdirmə mərhələsində əsas diqqət uşaqların əqli fəaliyyətinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsinə yönəlmişdir.

Diaqnostika aşağıdakı üsullardan istifadə etməklə aparılmışdır: L.A. Venqer "Perseptual modelləşdirmə", S.K. İvankova "Ardıcıl şəkillər", S.Y. Subotin "Fiqurları rəngləyin" və V.M. Koqan testi. Burada əsas məqsəd kiçik məktəblilər arasında analiz və sintezin inkişaf səviyyəsini müəyyən etmək, onun göstəriciləri əsasında nəzəri təfəkkürünün inkişaf səviyyəsini aydınlaşdırmaq olmuşdur.

**Analiz və sintez qabiliyyətinin inkişaf səviyyəsi**

**Cədvəl 1.**

| Səviyyələr | Qruplar üzrə kəmiyyət göstəriciləri | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 28.12 | 37% |
| Orta | 36.48 | 48% |
| Aşağı | 11.4 | 15% |




**Şəkil 1.** Analiz və sintez qabiliyyətinin inkişaf səviyyəsi

Beləliklə, kiçik məktəblilər arasında analiz və sintezin inkişaf səviyyəsi aşağıdakı kimidir: yüksək səviyyə - 37%, orta səviyyə - 48%, aşağı səviyyə - 15%. Məsələ burasındadır ki, cəmi üç tapşırığı yerinə yetirən uşaqlar aşağı səviyyə kimi təsnif edildilər, çünki bu, orta səviyyə üçün kifayət deyildir. Təklif olunan tapşırığı tamamilə yerinə yetirən uşaqlar yüksək səviyyə kimi qiymətləndirildilər. Tapşırığın 50 %-dən çoxunu yerinə yetirənlər orta səviyyə kimi qəbul olundular.

Bununla yanaşı təsnifat qabiliyyətinin inkişaf səviyyəsini müəyyən etmək üçün Koqan testindən istifadə olundu. Burada məqsəd təsnifat qabiliyyətinin inkişaf səviyyəsini müəyyənləşdirməkdən ibarətdir. Hər düzgün cavaba görə uşaq 1 bal, səhv cavab və ya cavabsız hallar üçün 0 bal alır. Beləliklə, şagirdin toplaya biləcəyi maksimum bal 25 baldır. Buna əsaslanaraq səviyyələri müəyyən etdik. Yüksək: 23 – 25 bal; Orta: 16 – 22 bal; Aşağı: 15 bal.

**Təsnifat qabiliyyətinin inkişaf səviyyəsi**

**Cədvəl 2.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi N=76 | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 38 | 50% |
| Orta | 26 | 34.21% |
| Aşağı | 12 | 15.79 % |




**Şəkil 2.** Təsnifat qabiliyyətinin inkişaf səviyyəsi

Beləliklə, təsnifat qabiliyyətinin inkişafı şagirdlərdə müxtəlif səviyyələrdə özünü göstərmişdir: yüksək səviyyə – 50%, orta – 34.21%, aşağı – 15.79 %. Bununla yanaşı "Ardıcıl şəkillər" metodikasının təhlili də aparılmışdır. Burada məqsəd: ümumiləşdirmə qabiliyyətinin inkişaf səviyyəsini müəyyən etmək və nəzəri təfəkkürün inkişafının səviyyələrini aşkar etməkdən ibarətdir. Burada şagirdlər kartları ardıcıllığın görünməsi üçün düzməlidirlər.

**Ümumiləşdirmə qabliyyətinin formalaşmasının göstəriciləri**

**Cədvəl 3.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 19 | 25% |
| Orta | 47 | 61.84% |
| Aşağı | 10 | 13.16% |




**Şəkil 3.** Ümumiləşdirmə qabliyyətinin formalaşmasının göstəriciləri

Beləliklə, ümumiləşdirmə qabiliyyətinin inkişafı şagirdlərdə müxtəlif səviyyələrdə özünü göstərmişdir: yüksək səviyyə – 25%, orta – 61.84%, aşağı – 13.16 %. Nəticələri ümumiləşdirərək belə nəticəyə gəlirik ki, daha çox şagird orta səviyyəyə malikdir. Yalnız on doqquz şagird bu tapşırığın öhdəsindən tam gəldi, on şagirddə ümumiləşdirmə qabiliyyəti aşağı səviyyədə idi, qalan şagirdlərdə isə ümumiləşdirmə orta səviyyəli kimi təsnif edildi. Həmçinin şagirdlərdə bənzətmə ilə icraetmə qabiliyyətini müəyyən etmək üçün "Fiqurları rəngləyin" testindən istifadə edildi.

**Bənzətmə ilə icra etmək qabiliyyətinin inkişaf səviyyəsinin göstəriciləri**

**Cədvəl 4.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi N=76 | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 56 | 73.68% |
| Orta | 12 | 15.78% |
| Aşagı | 8 | 10.54 % |




**Şəkil 4.** Bənzətmə ilə icra etmək qabiliyyətinin inkişaf səviyyəsinin göstəriciləri

Cədvəl 4-dən görünür ki, bənzətmə ilə icraetmə qabiliyyətinin üç səviyyəsi özünü göstərdi. Yüksək səviyyə: 56 şagird - 76.68%, orta səviyyə 12 şagird - 15.78%, aşağı səviyyə 8 şagird - 10.54 %. Bu faktlar göstərir ki, nəzəri təfəkkürün inkişafında digər komponentlərə uyğun olaraq bənzətmə ilə icraetmə qabiliyyəti də əsasdır və onların inkişafı nəzəri təfəkkürün inkişafı üçün zəmin yaradır. Bu faktları təsdiq etmək üçün tədqiqatın ikinci mərhələsində öyrədici iş aparıldı və nəticələr yenidən işlənildi.

Eyni texnikadan istifadə edərək L.A. Venqerin "Perseptual modelləşdirmə", S.K. İvankovanın "Ardıcıl şəkillər", S.Y. Subotinin "Fiqurları rəngləyin" və V.M. Koqanın "Zehni fəaliyyətin inkişaf dinamikasını müəyyən etmək üçün metodika"sından alınan nəticələri müqayisə etdik. Öyrədici eksperimentin məlumatlarını təhlil edərək, eksperimental sinfin nəzəri təfəkkürünün formalaşması ilə bağlı nəticələr əldə olundu.

**Öyrədici mərhələdə nəzəri təfəkkürün formalaşması**

**Cədvəl 5.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi N=76 | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 60 | 78.94% |
| Orta | 10 | 13.16% |
| Aşağı | 6 | 7. 90% |




**Şəkil 5.** Öyrədici mərhələdə nəzəri təfəkkürün formalaşması

Cədvəl 5-dən göründüyü kimi öyrədici mərhələdə şagirdlərdə nəzəri təfəkkürün inkişaf səviyyəsi müəyyənedici səviyyəyə nisbətən yüksəlmişdir. Bu fakt təsdiq edir ki, müxtəlif inkişafetdirici vasitələrdən istifadə etməklə nəzəri təfəkkürü inkişaf etdirmək olar və bu, praktik şəkildə özünü təsdiq etdi.

**Öyrədici mərhələdə analiz və sintezin inkişaf səviyyəsi**

**Cədvəl 6.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi N=76 | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 64 | 84.21% |
| Orta | 9 | 11.84% |
| Aşağı | 3 | 3.95 % |




**Şəkil 6.** Öyrədici mərhələdə analiz və sintezin inkişaf səviyyəsi

Cədvəl məlumatları göstərdi ki, eksperimentin öyrədici mərhələsindən sonra sinifdə 64 şagird (84.21%) - yüksək, 9 şagird (11.84%) - orta və 3 şagird (3.95%) - aşağı səviyyəyə malik olmuşdur. Bu fakt təsdiq edir ki, aparılmış inkişafetdirici iş öz bəhrəsini verir. Faiz göstəriciləri müəyyənedici eksperimentə nisbətən yüksəlmişdir.

**Öyrədici eksperimentdən sonra ümumiləşdirmə qabilyyətinin inkişaf səviyyəsi**

**Cədvəl 7.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 58 | 76.31% |
| Orta | 13 | 17.11% |
| Aşağı | 5 | 6.58% |




**Şəkil 7.** Öyrədici eksperimentdən sonra ümumiləşdirmə qabilyyətinin inkişaf səviyyəsi

Cədvəl məlumatları göstərir ki, öyrədici mərhələdən sonra ölçmələr zamanı 58 şagird (76.31%) - yüksək, 13 şagird (17.11%) – orta, 5 şagird (6.58%) isə - aşağı ümumiləşdirmə səviyyəsinə malik olmuşlar. İlkin vəziyyətlə müqayisə göstərir ki, yüksək səviyyə artmış, aşağı səviyyə və orta səviyyə azalmışdır. Ümumiləşdirmə qabiliyyətinin inkişafının müqayisəli təhlili göstərdi ki, şağirdlərdə bu qabiliyyətin inkiaşafı üçün aparılmış inkişafetdirici işlər müəyyən nəticə verə bilər.

**Öyrədici eksperimentdən sonra təsnifat qabiliyyətinin inkişaf səviyyəsi**

**Cədvəl 8.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 48 | 63.15% |
| Orta | 18 | 23.68% |
| Aşağı | 10 | 13.17 % |




**Şəkil 8.** Öyrədici eksperimentdən sonra təsnifat qabiliyyətinin inkişaf səviyyəsi

Cədvəl məlumatları göstərir ki, öyrədici mərhələdən sonra 48 şagird təsnifat qabiliyyətinin yüksək inkişaf səviyyəsindədir və bu, tədqiq olunanların 63.15% -ni təşkil edir. Orta səviyyədə 18 şagird var, yəni 23.68% və aşağı səviyyədə 10 şagird var, yəni 13.17%.

**Nəzarət mərhələsində analogiya ilə bağlı qabiliyyətin inkişaf səviyyəsi**

**Cədvəl 9.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 42 | 55.26% |
| Orta | 26 | 34.21% |
| Aşağı | 8 | 10.53 % |




**Şəkil 9.** Nəzarət mərhələsində analogiya ilə bağlı qabiliyyətin inkişaf səviyyəsi

Cədvəl məlumatları göstərdi ki, öyrədici mərhələdən sonra eksperimental sinifdə 42 şagird (55.26%) - yüksək, 26 şagird (34.21%) - orta səviyyəyə malik olmuş, yalnız 8 şagird (10.53 %) - aşağı səviyyədə qalmışdır.

Tədqiqat zamanı öyrədici eksperimentdən sonrakı ölçmələr nəticəsində sinif şagirdləri arasında analogiya üzrə icra qabiliyyətinin formalaşma səviyyəsində dəyişikliklərin müsbət dinamikasını müşahidə edirik. Təcrübənin formalaşma mərhələsi sayəsində III-IV sinif şagirdləri öz səviyyələrini orta səviyyədən yüksək səviyyəyə qaldırdı.

Təsdiqedici eksperimentin məlumatlarını təhlil etdikdən sonra eksperimental sinfin zehni fəaliyyətinin yetkinliyi haqqında nəticələr çıxarıldı.

**Zehni qabiliyyətlərin inkişafının göstəriciləri**

**Cədvəl 10.**

| Səviyyələr | Kəmiyyət qiymətləndirilməsi N=76 | Faiz göstəriciləri |
|---|---|---|
| Yüksək | 47 | 61.84% |
| Orta | 22 | 28.94% |
| Aşağı | 7 | 9.22% |




**Şəkil 9.** Zehni qabiliyyətlərin inkişafının göstəriciləri

Beləliklə, ibtidai sinif şagirdlərində zehni əməliyyatların formalaşma səviyyəsi müəyyənetmə və nəzarət mərhələlərində aşağıdakı kimi olmuşdur: yüksək: 47 şagird – 61.28%, orta: 22 şagird – 28.94%, aşağı: 7 şagird –9.22%.

**Məktəbin adi və eksperimental siniflərində şagirdlərin nəzəri təfəkkürün müxtəlif üsullarına görə bölüşdürülməsi (%-lə)**

**Cədvəl 11.**

| Sətir sayı | Məsələ həlli forması | Siniflər | Nəzəri təfəkkürün üsulları | | | |
|---|---|---|---|---|---|---|
| | | | Analitik | | Refleksiv | |
| | | | Təlim proqramları üzrə | | | |
| | | | Adi A | Eksper. B | Adi A | Eksper. B |
| 1 | əşyavi-əməli | 3 | 58,8* | 71,9* | 33,1** | 48,3** |
| 2 | | 4 | 74,7 | 83,8* | 47,4* | 59,1* |
| 3 | əyani-obrazlı | 3 | 39,7** | 54,2** | 19,7* | 30,2* |
| 4 | | 4 | 59,9 | 65,3 | 35,2 | 42,5 |
| 5 | sözlü-işarəli | 3 | 29,9* | 41,7* | 11,8 | 20,2 |
| 6 | | 4 | 45,8** | 59,4** | 27,8* | 38,4* |

Qeyd. ** - p<0,01; * - p<0,05  N=76

Apardığımız tədqiqat göstərdi ki, kiçik məktəblilərdə nəzəri təfəkkürün inkişafı şagirdlərin planlaşdırma, analogiyalar aparmaq, analiz və sintez, reflleksiv, analitik, ümumiləşdirmə qabiliyyətlərindən və əlverşli təhsil mühiti yaradılmasından asılıdır. İnkişafetdirici iş və məntiqi düşünmə qabiliyyətinin inkişafı bu prosesdə əhəmiyyətli rol oynayır.

Tədqiqat göstərdi ki, ümumiləşdirmə qabiliyyəti III-IV siniflərdə nəzəri təfəkkürün inkişafı üçün əsaslı zəmindir və bu nəzərə alınmalıdır.

**Apardığımız tədqiqat və ədəbiyyatın təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:**

- Tədqiqatlar göstərir ki, nəzəri təfəkkür konkret situasiyalarda və ya məsələ həllində əsas, ilkin ziddiyyətin ayrılması və təhlil edilməsinə əsaslanan təfəkkür növüdür.
- Müəyyən edildi ki, ilkin ziddiyyətin aydınlaşdırılması vasitələrinin axtarışı zamanı məsələnin konkret həlli yolları formalaşır. Nəzəri təfəkkür öyrənilən predmetin daxili xarakteristikasının təhlilinə və fikrən ümumiləşdirilməsinə əsaslanır.
- Aydın oldu ki, nəzəri təfəkkür vasitəsilə fikrən öyrənilən obyekti dəyişərək onun daxili xarakteristikasını açmaq mümkündür. Nəzəri təfəkkürün əsasını məzmunlu, nəzəri ümumiləşdirmə təşkil edir, bununla o, qavrayışa əsaslanan ümumiləşdirmə aparan empirik təfəkkürdən seçilir.
- Müəyyən olundu ki, kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşdırılması işinin yalnız riyaziyyat dərslərində aparılması kifayət deyil. Tərəfimizdən bu problemə kompleks yanaşılmışdır. Yalnız riyaziyyat dərslərində deyil, bütöv təlim fəaliyyətində, eləcə də dərsdənkənar fəaliyyətdə nəzəri təfəkkürün formalaşdırılması istiqamətində işlər aparılmışdır ki, bunun nəticəsində nəzəri təfəkkürün ayrı-ayrı komponentlərinin inkişafında dəyişiklik özünü göstərmişdir.
- Apardığımız inkişafetdirici iş zamanı kompleks tapşırıqlardan istifadənin məqbulluğu diqqət mərkəzinə gəlmişdir. Bu tapşırıqlara təhlil, planlaşdırma və refleksiya kimi əqli işləri formalaşdıran

tapşırıqlar, eləcə də didaktik və stolüstü oyunlar, məntiqi və riyazi tapşırıqlar, tapmaca-hekayələr, tapmaca-zarafatlar daxil edilmişdir.

- Apardığımız tədqiqat göstərdi ki, yoxlama mərhələsində kiçikyaşlı məktəblilərdə təhlil fəaliyyətinin formalaşmasında müsbət dinamika müşahidə olunmuşdur: uşaqlar yüksək və orta səviyyəyə malik olmuşdurlar. Şagirdlərin əyaniliyə istinad etmədən, məsələ həllinin nəzəri üsullarını seçməsi bunu deməyə əsas verir. Tədqiqatın sonunda uşaqlar tədricən əşyavi həll planından əqli həll planına keçid etdilər.
- Tədqiqat göstərdi ki, kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürünün formalaşdırılmasına kompleks yanaşmanı effektiv vasitə hesab etmək olar və bu prosesdə koqnitiv ziddiyyətlərin yaradılması optimal vəziyyətin yaranmasına gətirib çıxarır.
- Empirik faktların və eksperiment materiallarının təhlili nəticəsində şagirdlərdə nəzəri təfəkkürün təzahürünün əsasən üç səviyyəsi müəyyən edilmişdir. Bu səviyyələr bir tərəfdən orta məktəbdə təlim-tərbiyə prosesinin təşkilinin, digər tərəfdən isə fərdin özünün inkişaf səviyyəsi ilə şərtlənir. Həmin səviyyələrin müəyyənləşdirilməsi şagirdlərin təlim fəaliyyətinin məzmun və formasının dəyişdirilməsini, təlimin optimallaşdırılmasına diqqəti artırmağı zəruri edir. Belə ki, şagirdlərdə nəzəri təfəkkürün təzahürünün üç səviyyəsi bir-birindən həm əməliyyat planına, həm məzmun, həm də əldə edilən nəticəyə görə fərqlənir. Burada şagirdlərin nəzəri təfəkkürünün aktual səviyyəsi ilə yanaşı yaxın inkişaf zonası da öz əksini tapır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap olunmuş əsərlərində öz əksini tapmışıdır:**


1. Təlim prosesi kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürü formalaşdıran amil kimi // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Slavyan Universiteti, Elmi əsərlər (ictimai-siyasi elmlər seriyası), Bakı, İSSN 2309-3277, 2018, № 1, s. 121-126
2. Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün inkişafının yaş xüsusiyyətləri // «Psixologiya» jurnalı, Bakı, 2018, № 4, s. 30-36
3. Kiçik məktəb yaşı dövründə təfəkkürün diaqnostikasının xüsusiyyətləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Naxçıvan Müəllimlər İnstitutu, Xəbərlər (pedaqogika, psixologiya, tarix, riyaziyyat və informatika, biologiya, incəsənət), Naxçıvan, İSSN 2303-9116, 2019, № 1(55), s. 81-89
4. Nəzəri təfəkkür anlayışı və onun tədqiqi istiqamətləri // «Psixologiya» jurnalı, Bakı, 2019, № 1, s. 27-35
5. Riyaziyyat dərslərində kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün formalaşması imkanlarına dair // Azərbaycan Universiteti "Gənc tədqiqatçıların II Respublika elmi-praktik konfransının materialları", Bakı, 15 mart 2019, səh. 254-256.
6. İbtidai sinif şagirdlərində nəzəri təfəkkürün formalaşdırılması inkişafetdirici təlimin əsas göstəricisi kimi // Azərbaycan Memarlıq və İnşaat Universiteti Ümummilli lider Heydər Əliyevin 96-cı ildönümünə həsr edilmiş "İnsan inkişafı. Dünyaya inteqrasiya" II Beynəlxalq elmi konfransın materialları, Bakı, 26-27 aprel 2019, səh. 227-231.
7. Xüsusi təşkil olunmuş təlim şəraitində nəzəri təfəkkürün inkişafı və diaqnostikası məsələləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Texniki Universiteti "Azərbaycan və Türkiyə universitetləri: təhsil, elm, texnologiya" I Beynəlxalq elmi-praktik konfransın materialları, II hissə, Bakı, 18-20 dekabr 2019, səh.43-47.

8. Təlim prosesində nəzəri təfəkkürün formalaşdırılması probleminə müasir yanaşmalar // «Psixologiya» jurnalı, Bakı, 2019, № 4, s. 73-80
9. Psixologiyada fikri əməliyyatlar probleminin qoyuluşu və təlim prosesində inkişaf etdirilməsi yolları // «Psixologiya» jurnalı, Bakı, 2020, № 4, səh.51-59.
10. İbtidai sinif şagirdlərində nəzəri təfəkkürün formalaşdırılmasının pedaqoji şəraiti // «Psixologiya» jurnalı, Bakı, 2021, № 1 , səh.48-54.
11. Təhsil prosesində nəzəri təfəkkürün formalaşdırılmasının şərtləri və reallaşdırılması imkanları // «Psixologiya» jurnalı, Bakı, 2021, № 2 , səh.49-53.
12. Пути развития теоретического мышления у младших школьников // «Габітус» науковий журнал з соцологіі та психологіі, м. Одеса, № 36, стр. 92-97, http://habitus.od.ua/36-2022
13. О психологическом содержании теоретического мышления младших школьников // Сборник научных трудов «Современные образовательные технологии в условиях глобализации», Материалы VII Международной научно-практической конференции «Психология и педагогика на современном этапе наук: актуальные вопросы теории и практики», Общества Науки и Творчества, г. Казань, стр. 116-119, 28 марта 2022 года.
14. Müasir dərs və şagirdlərdə nəzəri təfəkkürün formalaşdırılması problemi // Psixologiya Elmi-tədqiqat İnstitutu "Ə.Əlizadə fenomeni: Azərbaycan psixologiyasının tarixi və inkişaf perspektivləri", Respublika elmi-praktik konfransı, Bakı, 22 oktyabr 2022, səh.118-121.
15. Şagirdlərdə nəzəri təfəkkürün formalaşdırılmasının əhəmiyyəti və əsas istiqamətləri // Mingəçevir Dövlət Universiteti "Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar", Beyəlxalq elmi konfrans, Mingəçevir, 16-17 dekabr 2022, səh.328-331.

16. Особенности психодиагностики мышления в период младшего школьного возраста // Сборник научных трудов «Современные технологии распространения достижений науки и образования», Материалы XVII Международной научно-практической конференции «Психология и педагогика: интеграция наук в XXI веке», Общества Науки и Творчества, Россия, г. Казань, стр. 53-57, 26 января 2023 года .
17. Şagirdlərdə nəzəri təfəkkürün təzahürünün fərdi xarakteristikası // Azərbaycan Dillər Unuversitetinin Elmi Xəbərləri, №3, 2023, səh. 148-154. İSSN 2518-752X

Dissertasiyanın müdafiəsi 28 iyun 2024-cü il tarixində saat $12^{30}$-da

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.43 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Akademik Zahid Xəlilov küçəsi, 33, e-mail: info@bsu.edu.az

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları http://bsu.edu.az/ rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 01.05.2024
Kağızın formatı:60x84 1/16
Həcm: 39708
Tiraj: 70